# İnsanların sağlamlığı keşiyində



Xaləddin Musayev 1984-cü ildə Nəriman Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda təhsilini fərqlənmə diplomu ilə başa vurub həkimlik sənətinə yiyələnmiş və elə həmin il də Sumqayıt Şəhər Xəstəxanasında həkim-cərrah ixtisası üzrə əmək fəaliyyətinə başlamışdır. 1988-1991-ci illərdə aspiranturada əyani təhsil almış və 1992-ci ildə müvəffəqiyyətlə müdafiə edərək tibb elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür. O, 1991-1999-cu illərdə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi-Tədqiqat Qastroentologiya İnstitutunda baş elmi işçi, 1999-cu ildən bu günədək Azərbaycan Tibb Universitetində fəaliyyətini davam etdirir. 2011-ci ildə elmi işini uğurla müdafiə edərək tibb üzrə elmlər doktoru adını almışdır.

Xaləddin Musayev 2013-cü ildən ATU-nun II Cərrahi Xəstəliklər kafedrasının professoru, Tədris Cərrahiyyə Klinikasının II Cərrahi Xəstəliklər Şöbəsinin müdiri və "Kolon və rektum cərrahiyyə dərnəyi"nin sədri, bir çox tibbi jurnalların redaksiya heyətinin, ixtisaslaşmış müdafiə şurasının üzvü və aprobasiya şurasının sədridir. O, 4 monoqrafiya, 1 dərs vəsaiti, 11 səmərələşdirici təklifin, 5 ixtiranın, 200-dən çox çap olmuş elmi işin müəllifidir və hazırda 1 dərslik üzərində işləyir.

Bu günlərdə **Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikasında olduq və professor Xaləddin Musayevlə** onun iş otağında görüşüb söhbət etdik. O, görülən işlərdən və qarşıda duran vəzifələrdən söz açaraq dedi:

- Həkimlik sənəti mürəkkəb peşədir. Həkimlər insanların sağlamlığı keşiyində dayanır və onlara xidmət edir. Biz həkimlər bundan qürur duyur və işimizə vicdanla yanaşırıq. Burada səhv etmək olmaz. Bu sənətin incəliklərinə yiyələnmək üçün daim çalışmalısan.

Azərbaycan səhiyyəsi ulu öndərimiz Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə onun qayğısı nəticəsində tərəqqi etmişdir. Bu gün dərin iftixar hissi ilə söyləmək olar ki, ümummilli liderimiz Heydər Əliyevin təməlini qoyduğu islahatların uğurla həyata keçirilməsi, sürətli inkişaf, sosial həyatın dinamik ritmi, ölkəmizdə baş verən müsbət proseslər tibb sahəsində də özünü bariz şəkildə göstərmiş və tibbi xidmətin keyfiyyəti xeyli artmışdır.

Son zamanlar möhtərəm Prezidentimiz İlham Əliyev bütün sahələrlə bərabər ölkə səhiyyəsinə də diqqət və qayğı göstərir. Ölkəmizdə əhaliyə göstərilən tibbi xidmət dünya standartları səviyyəsinə çatdırılmış, bir çox tibb müəssisələri əsaslı təmir olunmuş, yeni xəstəxanalar, diaqnostika mərkəzləri, poliklinikalar tikilib istifadəyə verilmiş və müasir tibbi avadanlıqlarla təchiz olunmuşdur. Bu insanlara göstərilən qayğının bariz nümunəsidir.

Azərbaycan Tibb Universitetinin Tədris Cərrahiyyə Klinikası 2013-cü ildə istifadəyə verilmişdir. Klinikanın əməliyyat bloku dünyada qəbul edilmiş standartlar əsasında müasir cihaz və avadanlıqlarla təchiz edilmiş və 18 əməliyyat otağını özündə birləşdirir.

Klinikaya müraciət edən xəstələrə 24 saat müddətində xidmət göstərən yüksək hazırlıqlı tibbi personal, beynəlxalq standartlara cavab verən Şua diaqnostikası, klinik laboratoriya şöbələri mövcuddur. Bu şöbələrdə USM rəngli doppler, Kompüter tomoqrafiya, MRT, KT angioqrafiya, rentgen kimi diaqnostik müayinələr peşəkar həkimlərimiz tərəfindən yüksək səviyyədə həyata keçirilir.

Düzgün və keyfiyyətli müalicənin aparılmasında ən başlıca faktorlardan biri də kadr potensialıdır. Klinikamızda korifey həkimlər, əməkdar elm xadimləri, akademiklər, professorlar, həmçinin tibb üzrə fəlsəfə doktorları, Avropada, Amerikada və Türkiyədə tibbi təhsil almış, eləcə də digər ölkələrdə təcrübə keçmiş həkim kollektivi fəaliyyət göstərir.

Biz tibbi xidmətin keyfiyyətini artırmaq üçün davamlı olaraq araşdırmalar aparır, tibbi personalın ölkə daxilində və xaricdə təhsil almasını təmin edirik. Məqsədimiz ciddi seçim etməklə əhaliyə yüksək səviyyədə tibbi xidmət göstərməkdir. Xəstələrin tam sağalıb həyata qayıtması biz həkimləri çox sevindirir. Biz bundan qürur duyur və fərəhlənirik.

Ətraf mühit, qida faktoru, stress son vaxtlar mədə və bağırsaq xəstəliklərinin sayını artırmışdır. Xüsusilə qəbizlik, piylənmə adi hala keçmiş və xəstələr bundan çox əziyyət çəkirlər. Son vaxtlar yoğun və düz bağırsaq xəstəliyi daha geniş yayılmışdır. Xəstələr uzun müddət periferiya və mərkəzi xəstəxanalarda müayinə və müalicə olsalar da müalicə effektsiz olur. Ağır xəstələrin vaxtında ixtisaslaşmış mərkəzlərə göndərilməsi və ya müraciət etməsi onların daha tez sağalmasına səbəb olar. Belə xəstələr bizə müraciət edirlər.

Bu yaxınlarda dəfələrlə əməliyyat olunmuş, ancaq effekti olmayan 19 yaşında xəstə bir qadın klinikamıza müraciət etdi. O, çox ümidsiz göründü. Biz onun üzərində mürəkkəb bir cərrahiyyə əməliyyatı apardıq və əməliyyat uğurlu keçdi. Bizim bu uğurumuza bütün kollektiv, xüsusilə, xəstənin özü və onun yaxınları çox sevindilər. İnanın ki, həmin gün sevincimizin həddi-hüdudu yox idi.

Azərbaycan Tibb Universitetinin nəzdində "Kolon və rektun cərrahiyyə dərnəyi" yaranmışdır. Bu dərnək Türkiyə və Avropa ölkələrinin kolorektal dərnəkləri ilə çox sıx əlaqə yaratmışdır. 2018-ci ilin may ayında Azərbaycan Tibb Universitetində II Azərbaycan və Türkiyə kolorektal cərrahiyyə simpoziumu keçirilmişdir. Simpoziumun işində Avropa Kolorektoloqlar cəmiyyətinin prezidenti iştirak etmiş və maraqlı elmi məruzə ilə çıxış etmişdir. Simpozium çox maraqlı keçmiş, kolorektologiya haqqında son elmi məlumatlar gənc həmkarlar, eləcə də, professor-müəllim heyəti arasında maraqlı elmi diskussiyalara səbəb olmuş və gənc həkimlərin də bu sahəyə həvəsini xeyli artırmışdır.

Dərnəyimiz Türkiyə və Avropa kolorektologiya dərnəkləri ilə sıx əməkdaşlıq edir və həmin təşkilatlarda Azərbaycan kolorektal cəmiyyətinin təmsilçi nümayəndəsi seçilmişdir. Bu yaxınlarda nümayəndə heyətimizlə Türkiyədə keçirilən kolorektal cərrahiyyəsinin simpoziumunda iştirak etdik. Orada bizi çox mehribanlıqla qarşıladılar. Bizə göstərilən diqqət və qayğı bir daha sübut etdi ki, biz bir millət, iki dövlətik.

Biz sentyabr ayında keçiriləcək Avropa Kolorektal Cəmiyyətinin konqresinə dəvət olunmuşuq və Azərbaycanı bu konqresdə təmsil edəcəyik. Çalışacağıq ki, bundan sonra da elmi fəaliyyətimizi davam etdirək və yeni-yeni nailiyyətlər qazanaq.

**Kamil İSMAYILOV,**
**"Respublika".**

Respublika.- 2018.- 30 sentyabr.- S. 7.